# Həyatı

---

Asif Heydər oğlu Rüstəmli 16 fevral 1954-cü il Ağcabədi rayonunun Qiyaməddinli kəndində anadan olub, 1982-ci ildə Azərbaycan Dövlət Universitetini bitirib.

Asif Rüstəmli 1988-ci ilin yanvar ayında Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutuna müsabiqə yolu ilə daxil olmuş, baş laborantlıqdan baş elmi işçi, şöbə müdiri vəzifəsinədək yüksəlmiş, "Folklor Sarayı" Elmi-Mədəni Mərkəzinin (indiki AMEA Folklor İnstitutunun) direktoru (1991–1995), Elmi nəşrlər bölməsinin (1995–1999) və Mətbuat tarixi və publisistika şöbəsinin (2014–2018) müdiri vəzifələrində işləmişdir. 2018-ci ilin sentyabr ayından Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Humanitar, ictimai elmlər və sənətşünaslıq, 2020-ci ilin mart ayından isə Akkreditasiya şöbəsinin müdiri, AAK Kollegiyasının üzvüdür.

Asif Rüstəmlinin elmi fəaliyyətinin əsas istiqamətini cabbarlışünaslıq təşkil edir. O, Cəfər Cabbarlının kitablarına salınmamış 6 pyesini, 4 hekayəsini, 30-dək lirik və satirik şeirini, 60 ədəbi-tənqidi məqaləsini ilk dəfə toplayıb, ərəb qrafikasından transliterasiya və tərtib edib, ön söz, qeydlər və şərhlər yazaraq "Ədirnə fəthi" adı ilə 1996-cı ildə "Elm" nəşriyyatında çap etdirmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunan C.Cabbarlının dörd cildlik "Əsərləri"nin də tərtibi, ön sözü və şərhləri Asif Rüstəmliyə məxsusdur. O, bu nəşrə "Bədii həqiqətlər ustası" sərlövhəli, yeni faktlar əsasında 39 səhifəlik ətraflı giriş yazmış, sovet senzurasının yersiz redaktələrinə məruz qalmış əsərləri müəllif əlyazmaları əsasında bərpa etmiş, bir sıra nümunələr ilk dəfə çoxcildlikdə işıq üzü görmüşdür. Təhsil Nazirliyinin qərarı ilə "Azərbaycan ədəbiyyatı" seriyasından buraxılan Cəfər Cabbarlının "Seçilmiş əsərləri"ni (Bakı, "Çaşıoğlu" nəşriyyatı, 2004, 45.8 ç.v.) də Asif Rüstəmli tərtib etmiş, nəşrə geniş ön söz, qeyd və şərhlər yazmışdı. O son illər böyük ədibin həyat və yaradıcılığının naməlum məqamlarından bəhs edən sanballı məqalələri ilə mətbuatda və elmi məcmuələrdə mütəmadi çap olunur. A.Rüstəmlinin "Molla Nəsrəddin" Ensiklopediyası"na (Bakı, "Elm", 2020, 468 s.) 33 məqaləsi daxil edilmişdir.

Asif Rüstəmli Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ədəbiyyat, mədəniyyət və incəsənət mövzusunda 30 illik dövrü əhatə edən məruzələrini, çıxışlarını söhbətlərini toplayıb tərtibləyərək 2000-ci ildə "Nəcib, mənəvi ideallarin tərənnümü" (Bakı, "Ozan", 2000, 29.25 ç.v.) sərlövhəsi ilə çap

etdirmiş, ulu öndərin "Ədəbiyyatın yüksək borcu və amalı" (Bakı, "Ozan", 2000, 31 ç.v.) kitabının redaktoru olmuşdur.

**Elmi fəaliyyəti**

Lalə Hacıyevanın "Əhmədbəy Ağayevin publisistikası" (BDU, 2006), Aygün Həsənovanın "Azərbaycan ədəbiyyatında Şeyx Şamilin bədii obrazı" (Nizami adına Ədəbiyyat İnstitutu, 2007), Bahar Məmmədovanın (Bərdəli) "Balaş Azəroğlunun yaradıcılıq yolu" (Nizami adına Ədəbiyyat İnstitutu, 2010), Tofiq Yusifovun "Azərbaycanda açıq cəmiyyətin formalaşmasında mətbuatın rolu (1991–2004)" (BDU, 2012) və digər mövzularda fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının rəsmi opponenti olmuşdur. Onun rəhbərliyi ilə Aynurə Paşayeva fəlsəfə doktoru, Mərziyyə Nəcəfova elmlər doktoru dissertasiyalarını uğurla müdafiə etmişlər (2018).

15 kitabın, 350-dən çox elmi, publisistik məqalənin və məruzənin müəllifi, 20 kitabın tərtibçisi, 2 kitabın tərcüməçisi, çoxsaylı kitabların redaktoru və rəyçisi olmuş, onlara ön söz yazmışdır. Elmi məqalələri xarici ölkələrdə türk, ingilis, rus, fars, polyak və macar dillərində çap olunmuşdur.

Asif Rüstəmlinin ssenariləri əsasında "Günəş şərqdən doğur" (Az.TV, 2003, 6 mart), "İstiqlal fədaisi" ("Lider" 2004, 6 fevral), "Nurlu gələcək naminə" ("Space", 2005, 15 sentyabr), "Bir kərə yüksələn bayraq. Azərbaycan Cümhuriyyəti — 100" (Qəbələ, 2018, 6 iyun) sənədli filmləri çəkilib nümayiş etdirilmişdir.

Moskvanın "Kinoprodukt" Studiyasının çəkdiyi "Əfsanənin əks üzü" seriyasından "26 Bakı komissarı" (Moskva, Zvezda TV, 2008) sənədli filminin elmi məsləhətçisi olub və filmdə çıxış edib.

O 1992–1996-cı illərdə Azərbaycan Televiziyası ilə gedən "Yaddaş", "Tarix bizə nə deyir" verilişlərinin ssenari müəllifi və aparıcısı olub.

Asif Rüstəmli həmçinin Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Mətnşünaslıq, Redaktənin əsasları, Ədəbi redaktənin əsasları fənlərini tədris etmiş (1996–2019), 2013–2018-ci illərdə 0,5 ştat əvəzçilik üzrə ADMİU-nun professoru vəzifəsində çalışmışdır. AAK Rəyasət Heyətinin qərarı ilə 2018-ci ildə professor elmi adına layiq görülmüşdür. A.H.Rüstəmli haqqında “Fədakar tədqiqatçı-alim” adlı məqalələr toplusu çap olunmuş, 65 illik yubileyi münasibətilə M.F.Axundzadə adına Respublika Milli Kitabxanasında əsərlərinin sərgisi keçirilmişdir.

Asif Rüstəmli "Cəfər Cabbarlı və ədəbi-mədəni mühit" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş (2011, noyabr), bir sıra beynəlxalq elmi konfransların, simpoziumların iştirakçısı olmuşdur. Ankarada (1991), Bağdadda (1994), Tehranda

(1995), Təbrizdə (1998), Bəsrədə (1999), Urmiyada (2004, 2011), Varşavada (2007), Tomskidə (2008), Elazığda (2008, 2012, 2013), Budapeştdə (2010), Diyarbəkirdə (2013) və Astanada (2014), Balıkəsirdə (2018) keçirilən beynəlxalq elmi tədbirlərdə iştirak etmişdir.

Azərbaycanın tanınmış ədəbiyyatşünası, filologiya elmləri doktoru (2012), professor (2018), AMEA Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri (2014–2018), Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının şöbə müdiri (2018, 12 sentyabr), Azərbaycan Yazıçılar Birliyinin üzvü (1996), AYB tərkibində Cəfər Cabbarlı komissiyasının sədri (2015), Prezident təqaüdçüsü (2014–2015), AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının üzvü (2003–2018), Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü (2013–2018) Asif Rüstəmlinin bu il 70 yaşı tamam olur.

***Bu münasibətlə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının bütün heyəti və çoxsaylı oxucuları adından xalqımızın dəyərli ziyalısı, görkəmli tədqiqatçı-alim, çox hörmətli professor Asif Heydər oğlu Rüstəmlini anadan olmasının 70 illik yubileyi manasibətilə ürəkdən təbrik edir, ona uzun ömür, möhkəm can sağlığı, şəxsi həyatında, elmi və bədii yaradıcılığında, eləcə də, pedaqoji və ictimai fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq!..***